AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

*Əlyazması hüququnda*

**HABİL İSMİYƏLİ OĞLU HƏSƏNOV**

# XVIII ƏSRİN SON RÜBÜ-XIX ƏSRİN ƏVVƏLİNDƏ AZƏRBAYCAN RUSİYA-İRAN MÜNASİBƏTLƏRİNDƏ

**İxtisas: 5503.02 - «Vətən tarixi»**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **S.A.Məmmədov**
Əməkdar elm xadimi,
Dövlət mükafatı laureatı,
tarix üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:**

Tarix üzrə elmlər doktoru, professor **C.M. Mustafayev**
Tarix üzrə fəlsəfə doktoru **G.C.Nəcəfli**

**Aparıcı təşkilat**: Bakı Dövlət Universitetinin "Azərbaycan tarixi" (Humanitar fakültələr üzrə) kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 5503.02-"Vətən tarixi", 5502.01-"Ümumi tarix", 5507.01-"Beynəlxalq münasibətlər tarixi" və 5509.01-"Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə fəaliyyət göstərən tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının «29___» _06__ 2016-cı il tarixli iclasında saat____ keçiriləcəkdir.

**Ünvan:** AZ-1143, Bakı şəhər, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat «___» ____________ 2016-cı ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**: **C.Ə.Bəhramov**
tarix üzrə fəlsəfə doktoru

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir Azərbaycan tarixşünaslığında elmi və siyasi cəhətdən aktuallıq kəsb edən problemlərdən biri Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən və obyektiv öyrənilməsi məsələsidir. Milli dövlətçiliyin bərpasından sonra, beynəlxalq münasibətlərin tam hüquqlu subyektinə çevrilən Azərbaycan dövlətinin güclü daxili və xarici siyasəti üçün bu xüsusi əhəmiyyət kəsb edir. Ümummili lider Heydər Əliyev 1993-cü il sentyabrın 21-də və 1997-ci il yanvarın 31-də alimlərlə görüşündəki nitqində Azərbaycanın XIX-XX əsrlər tarixinin yenidən doğru-düzgün araşdırlması zəruriliyini bildirmişdi.[1] Bu konteksdən XVIII əsrin son rübü-XIX əsrin əvvəlində Rusiya-İran münasibətlərində Azərbaycanın yeri problemi aktuallıq kəsb edir.

Azərbaycan Respublikasının müasir dövrdə qonşu dövlətlərlə, xüsusən də Rusiya Federasiyası və İran İslam Respublikası ilə diplomatik, iqtisadi və s. münasibətləri daha səmərəli qurması mövzunun aktuallığını şərtləndirir. Bu mənada xanlıqlar dövrünün tarixi təcrübəsinin öyrənilməsi mühüm əhəmiyyətə malikdir. Tədqiq olunan dövrdə də Rusiya özünün Qafqaz siyasətində erməni kartından maksimum yararlanmaq, Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq istəyirdi. Bu baxımdan xanlıqlar dövründə Rusiya və Qacarlar İranı dövlətlərinin Azərbaycana dair siyasətlərinin mahiyyətinin açılması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin qeyd etdiyi kimi "O dövrdə cərəyan etmiş proseslər xalqımızın taleyində dərin iz buraxmışdır.."[2]

Rusiya və Qacarlar İranı dövlətləri arasındakı münasibətlərdə Azərbaycanın yeri məsələsi tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Lakin istər çar Rusiyası, istərsə də sovet dövrü tədqiqatçılarının əksəriyyəti problemin mahiyyətini təhrif edərək Rusiyanın Qafqaz siyasətinə xeyirxahlıq, himayədarlıq donu geydirmiş, Qacarların bölgə ilə bağlı siyasətlərini qəsbkarlıq kimi qiymətləndirmişlər. Ən başlıcası isə, XVIII əsrin sonlarında Qacarlar İranı dövlətinin xarakterindəki dəyişikliklər, xüsusilə dövlətin fəaliyyətində Azərbaycan türk əsilli Qacarlar sülaləsinin hakim rola malik olması məsələsi üzərindən sükutla keçilmişdir. Sadalananları, xüsusilə farsdilli tarixi ədəbiyyatda dövlətin Qacariyyə kimi adlanmasını, Azərbaycan sovet tarix elmində "Qacar səltənəti" ifadəsinin

---

[1] Əliyev H.Ə.Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayırıcında. Bakı, 2001,s.14-15

[2] Əliyev İ.H. Dünya tarixçilərinin VIII beynəlxalq Atatürk konfransının iştirakçılarına. "Azərbaycan" qəzeti, 2015. 14 oktyabr.

işlənməsini[1], rəsmi İran dövləti ifadəsinin Pəhləvilər dövründən siyasi dövriyyəyə daxil edilməsini əsas[2] tutaraq "İran" adlandırılan bu dövləti müasir tarix elmimizdə «Qacarlar» dövləti kimi təqdim olunmasını təklif edirik.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqatın zaman əhatəsinin XVIII əsrin son rübü-XIX əsrin əvvəlli seçilməsi onunla bağlıdır ki, Rusiya imperiyası məhz XVIII əsrin 70–ci illərindən başlayaraq Azərbaycanda möhkəmlənmək uğrunda diplomatik və hərbi fəallıq nümayiş etdirməyə başladı. 1804-cü ildən Rusiya imperiyası və Qacarlar İranının Azərbaycan uğrunda mübarizəsi yeni mərhələyə–müharibə mərhələsinə qədəm qoydu. Bu səbəbdən Rusiya-Qacarlar İranı münasibətlərində Azərbaycanın yeri məsələsinin siyasi və diplomatik aspektlərini araşdırmaq məqsədilə dissertasiyanın xronoloji çərçivəsi I Rusiya-Qacarlar İranı müharibəsinin başlandığı 1804-cü ilə qədərki dövrlə məhdudlaşdırılmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi.** XVIII əsrin son rübü-XIX əsrin əvvəllərində Rusiya-İran (Qacarlar) münasibətlərində Azərbaycanın yeri məsələsinə tədqiqatçıların münasibəti xeyli fərqli olmuşdur. Bunları nəzərə alaraq problemlə bağlı əsərlər şərti olaraq beş qrupa bölünmüşdür: 1. 1917-ci il oktyabr çevrilişinə qədərki rus qafqazşünaslarının əsərləri; 2. Sovet dövrü tarixçilərinin əsərləri; 3. Dövlət müstəqilliyinin bərpasından sonrakı illərdə Azərbaycan Respublikasında nəşr olunmuş əsərlər; 4. İran və türk tarixçilərinin əsərləri; 5. Qərb (ölkələri) tarixçilərinin əsərləri.

Problemin ayrı-ayrı tərəflərinin işlənilməsində C.Baddeli, P.Q.Butkov, N.F.Dubrovin, V.A.Potto, S.A.Kişmişev kimi rus qafqazşünasları mühüm rol oynamışlar[3].

C.Baddelinin "Qafqazın ruslar tərəfindən fəthi (1720-1860)" əsərində Ağa Məhəmməd Qacarın və V.Zubovun yürüşləri, I Rusiya-Qacarlar İranı müharibəsinin başlanması, Rusiya ilə Qacarlar İranı arasında hərbi

---

[1] Cənubi Azərbaycan tarixinin oçerkləri (1828-1917). Bakı: 1985,s.16

[2] Əminə Pəkrəvan. Abbas Mirzə və Azərbaycan. Bakı: Qanun, 2010, s.5, s.83

[3] Баделли Дж. Завоевание Кавказа русками 1720-1760 (Перевод с. англ. Л.А.Калашниковой).: Центрополиграф, 2011, 351стр.; Бутков П.Г. Материалы для новой истории Кавказа 1722 по 1803 г. СПб, 1869, т.II,601 стр; т.III, 620 стр.; Дубровин Н.Ф. Закавказье от 1803-1806 года. СПб. Печатано в типографии Департамента уделов, 1866, 543 стр.; Yenə onun. История войны и владычества русских на Кавказе. ч. II, СПб, Типография департамента литейных проспект,1866; ч. III, СПб.1888, 640 стр;Yenə onun. Поход графа Зубова в Персию в 1796 г. с приложением оперативной карты похода и планы осады Дербента. // Военный сборник 1874, №2-6; Потто В.А. Исторический очерк Кавказских войн от их начало до присоединения Грузии. Тифлис, 1899, 305 стр.; Кишмишев С.А.Походы Надир шаха в Герат, Кандагар, Индию и события в Персии после его смерти. Тифлис: 1889, 420 стр.

əməliyyatlar, Gülüstan sülhü və II Rusiya-İran müharibəsindən bəhs olunur.

P.Q.Butkovun əsəri Azərbaycan xanlıqlarının Rusiya imperiyası və Qacarlar İranı dövlətləri ilə münasibətlərini, eləcə də bu iki dövlətin Azərbaycana münasibətdə yeritdikləri siyasəti əks etdirən faktiki materiallarla zəngindir.

Digər rus qafqazşünaslarından fərqli olaraq P.Q.Butkov İran və Cənubi Azərbaycanda gedən proseslərə xeyli diqqət yetirmiş, Azərbaycanın cənub xanlıqları ilə Ağa Məhəmməd xan arasındakı münasibətlər haqqında geniş məlumat vermişdir.

N.F.Dubrovinin əsərlərində Rusiya ilə Qacarlar dövləti arasında Azərbaycanın yeri məsələsi işıqlandırılmışdır. Digər rus qafqazşünaslarından fərqli olaraq N.F.Dubrovin Azərbaycan xanlıqlarının Rusiya ilə münasibətləri məsələsində daha obyektiv mövqedə dayanır. O, doğru göstərir ki, münasibətlərin formalaşmasında Rusiyanın böyük dövlətçilik mövqeyi həlledici rol oynayırdı.

V.A.Potto və S.A.Kişmişev əsas diqqəti Rusiyanın apardığı işğalçı müharibələrin işıqlandırılmasına yönəltsələr də, yeri gəldikcə, Rusiya-İran münasibətlərində Azərbaycanın yeri məsələsinə də toxunmuşlar. P.Q.Butkov və N.F.Dubrovin kimi bu müəlliflər də öz əsərlərində Rusiyanın işğalçılıq siyasətinə haqq qazandırmağa çalışırlar.

XIX əsr Azərbaycan tarixçisi A.Bakıxanov "Gülüstani-İrəm" əsərinin V fəslində[1] Rusiya-Qacarlar İranı hərbi-siyasi münasibətlərinə, həmçinin bəzi xanlıqların Rusiya və Qacarlar İranı ilə bağlı yürütdükləri siyasətə aydınlıq gətirməyə çalışmışdır.

Azərbaycan tarixçilərindən Mirzə Adıgözəl bəy, Mirzə Camal, Əhməd bəy Cavanşirin əsərləri Rusiyanın və Qacarların Azərbaycana münasibətini öyrınmək baxımından dəyərlidir[2]. Lakin bu müəlliflər çar hökumətinin Azərbaycana münasibətdə yeritdiyi müstəmləkəçilik siyasətinin mahiyyətini açmağa cəsarət etməmişlər.

1917-ci il Oktyabr çevrilişindən sonrakı illərdə istər Rusiyada, istərsə də Şimali Azərbaycanda Rusiyanın və Qacarlar İranı dövlətinin Cənubi Qafqaza münasibətdə yeritdikləri siyasətlə bağlı əsərlərdə fərqli mövqelər müşahidə olunur. Rusiyanın XIX əsrin əvvəllərində Qafqazda apardığı müharibələrə qiymət verən M.N.Pokrovski bu müharibələrin müstəmləkəçilik

---

[1] Bakıxanov A. Gülüstani-İrəm. Bakı: Mömin, 2001, s.181-232.

[2] Qarabağnamələr. I c.Bakı: Yazıçı, 1989, 192 səh.; Qarabağnamələr. II c.Bakı: Yazıçı, 1991, 450 səh.

məqsədi daşıdığını bildirirdi[1]. V.M.Sısoyev[2] və N.K.Krasnov[3] Rusiyanın Qafqaz siyasətində müstəmləkəçiliyin olduğunu söyləsələr də, bütövlükdə bu siyasətin işğalın qurbanı olmuş xalqlar üçün mütərəqqi rol oynadığını xüsusi vurğulamışlar. Lakin sonrakı onilliklərdə SSRİ-də avtoritar kommunist rejimi tam bərqərar olduqdan sonra XVIII-XIX əsrlərdə Rusiyanın Qafqaz siyasətindəki müstəmləkəçilik inkar edilərək birmənalı şəkildə mütərəqqi hadisə kimi qiymətləndirilməyə başlandı. Sovet tarixçiləri artıq XX əsrin 40-50-ci illərindən başlayaraq Rusiyanın Azərbaycan xalqının taleyində ancaq mütərəqqi rol oynadığını, guya Azərbaycan xalqının daima Rusiyanın himayəsi altına keçməyə can atdığını «sübut edən» əsərlər yazmağa başladılar[4].

V.N.Leviatovun "XVIII əsr Azərbaycan tarixinin oçerklər"i[5] əsərini Azərbaycanın XVIII əsr tarixi məsələlərinin sistemli şəkildə şərhi istiqamətində uğurlu addım saymaq olar. Təəssüf ki, müəllif Rusiyanın Azərbaycanda yeritdiyi işğalçı siyasətə haqq qazandıraraq Ağa Məhəmməd xan Qacarın Cənubi Qafqaza yürüşlərini işğalçılıq aktları kimi qiymətləndirir.

O.P.Markova[6] XVIII əsrin 80-90-cı illərində Azərbaycanda möhkəmlənmək uğrunda gedən Rusiya-Qacarlar qarşıdurmasını şərh etsə də, Rusiyanın işğalçılıq siyasətinə haqq qazandırmağa çalışmışdır.

Sovet dövründə İran tarixinə dair yazılmış ümumiləşdirilmiş əsərlərdə də bu mövqe müdafiə edilmişdir[7]. Tədqiq olunan problemin ayrı-ayrı məsələlərinə XX əsrdə yaşamış Azərbaycan tarixçilərinin əsərlərində də münasibət bildirilmişdir.

---

[1] Покровский М.Н. Дипломатия и войны царской Росии в XIX столетии.: Красная новь. 1923, 392 стр.

[2] Сысоев Б.М.Краткий очерк истории Азербайджана (Северного). Баку, Азербайджанский Археологический Комитет Наркомпроса Аз.ССР, 1925, 146 стр.

[3] Краснов М.К.Вопросы внешней политики Росии в трудах М.Н.Покровского. Казань,1973, 44 стр.

[4] Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri (XIX-XX əsrin əvvəlləri). Bakı: Az.SSR EA, 1956, 289 səh.

[5] Левиатов В.Н. О походе Фатали хана в Ардебиль. //Известия А.Н.Азерб. ССР, 1947, № 12, с.32-49; Yenə onun. Очерки из истории Азербайджана в XVIII в. Баку: АН Азерб. ССР, 1948, 226 стр.

[6] Маркова О.П. Россия, Закавказье и международные отношения в XVIII веке. Москва: Наука, 1966, 332 стр.

[7] Иванов М. Очерки истории Ирана.: Госполитиздат, 1952, 468 стр.; История Ирана с древнейших времен до конца XVIII веке. Под. ред. В.Струве, И.Орбели, И.Петрушевского, М.:из-во Ленинградского Университета., 1958, 390 стр.

Azərbaycanın XVIII əsr tarixinin görkəmli tədqiqatçısı H.B.Abdullayev bu dövrə aid iki sanballı əsər yazmışdır[1]. Müəllif "XVIII əsrin 60-80-ci illərində şimal-şərqi Azərbaycan tarixindən" əsərində çar Rusiyasının Azərbaycanda yeritdiyi siyasətin işğalçı xarakter daşıdığını göstərməyə cəhd etsə də, sovet rejiminin cızdığı çərçivədən çıxa bilməmiş, Rusiyanı, az qala Azərbaycan xalqının xilaskarı kimi qiymətləndirmişdir.

Tədqiq olunan problemin ayrı-ayrı aspektlərinin tarixi köklərinin araşdırılmasında prof. S.A.Məmmədovun,[2] eləcə də, Azərbaycanın tarixi coğrafiyasına dair V.Piriyevin tədqiqatları maraq doğurur[3].

G.Məmmədovanın "Rus səfirləri Azərbaycan haqqında (XVIII əsrin 20-60-cı illəri) əsərində[4] İranda olmuş rus səfirlərinin materiallarına (məlumat, raport, gündəlik, qeyd, məktub) istinad edilərək Azərbaycan-rus ticarətinin inkişafı, Azərbaycan hakimləri ilə Rusiya arasında diplomatik münasibətlərin yaranması, rus səfirlərinin Azərbaycandakı siyasi hadisələrə münasibəti və s. məsələlər şərh olunmşdur.

Azərbaycanın Cənub xanlıqlarının tarixi, İran dövlətinin xarici siyasətində onların yeri məsələsi H.Dəlili[5] və N.Mustafayevanın əsərlərində[6] öyrənilmişdir. H.Dəlilinin əsərinin xronoloji çərçivəsi Qacarlar sülaləsinin hakimiyyət uğrunda mübarizəyə başladığı XVIII əsrin 80-ci illərinin ortaları ilə məhdudlaşır. C.Mustafayevin əsərində XVIII əsrin son onilliyində Azərbaycan-Rusiya münasibətləri ilə yanaşı, Qacarlar səltənətinin Azərbaycana münasibətdə yeritdiyi siyasətə də xeyli yer vermişdir[7].

A.Q.Babayevin əsəri Rusiyaya ilhaq edilmə ərəfəsində Azərbaycanın daxili və xarici siyasətini öyrənmək baxımından dəyərlidir[8]. A.Babayev kimi F.Əsədov da Azərbaycanda Rusiyaya çox güclü meylin olduğu mövqeyində dayanmış, Rusiyanın Lənkəran (Talış) xanlığına "dar gündə yaxşı ar-

---

[1] Абдуллаев Г.Б. Из истории Северо-Восточного Азербайджана в 60-80-х гг. XVIII в. Баку: АН Азерб.ССР, 1958, 211 стр.; Абдуллаев Г.Б. Азербайджан в XVIII в. и взаимоотношения с Россией. Баку: АН Азерб.ССР, 1965, 621 стр.

[2] Məmmədov S.A.Azərbaycan XVII-XVIII əsrin birinci yarısında. Bakı: APİ, 1981, 108 səh.; Yenə onun. Исторические связи азербайджанского и армянского народов II половине XVII и I треть XVIII века. Баку: Элм, 1977, 263 стр.; Yenə onun. Азербайджан по источникам XV-первой половине XVIII вв. Баку: Элм, 1993, 240 стр.

[3] Piriyev V. Azərbaycanın tarixi coğrafiyası. Bakı: Araz, 2002, 152 səh.

[4] Мамедова Г. Русские консулы об Азербайджане (20-60 гг.). Баку: Элм,1989, 128 стр.

[5] Dəlili H. Azərbaycanınn cənub xanlıqları (XVIII əsrin ikinci yarısı). Bakı: Elm, 1979, 144 səh.; Yenə onun. Urmiya xanlğının tarixi oçerki (XVIII əsrin II yarısı-XX əsrin 30-cu illərində). Namizədlik dissertasiyası. Bakı, 1967, 278 səh.

[6] Mustafayeva N. Cənubi Azərbaycan xanlıqları. Bakı: Azərnəşr, 1995, 96 səh.

[7] Мустафаев Дж.М. Северные ханства Азербайджана и Россия (конец XVIII начало XIX в.). Баку: Элм, 1989, 127 стр.

[8] Babayev A.Q. Rusiyaya qovuşmaq ərəfəsində. Bakı: Azərnəşr, 1988, 167 səh.

xa" olduğunu qeyd etmiş, lakin bu dövlətin işğalçılıq niyyətləri barədə susmuşdur[1].

F.Əsədov Lənkəran xanlığının tədqiaqatçısı kimi xanlığın tarixi haqqında maraqlı məlumatlar versə də onun ilk xanlarının Rusiya, İran və Osmanlı dövlətləri ilə əlaqələrini işıqlandırmamışdır.[2]

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra tarixçilər Rusiya-İran münasibətlərində Azərbaycanın yeri problemini daha obyektiv şəkildə tədqiq etmək imkanı qazandılar. S.M.Hacıyeva monoqrafiyasında[3] II Yekaterina hökumətinin "Şərq siyasəti"ndə Azərbaycanın yerini müəyyənləşdirməyə çalışmış, bu siyasətin aşkar şəkildə müstəmləkəçilik xarakteri daşıdığını göstərə bilmişdir.

G.Nəcəflinin monoqrafiyalarında[4] Rusiyanın hakim dairələrinin dəstəyi ilə erməni liderlərinin Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq planlarına diqqət yetirilmişdir.

H.Sadıqov Cənubi Qafqaz ətrafında Rusiya, İran və Türkiyənin xarici siyasətini, o cümlədən Azərbaycan uğrunda Rusiya-İran və rus-türk müharibələrini (1787-1829-cu illər) tədqiq etmişdir[5]. T.Mustafazadə Rusiya-Türkiyə münasibətlərində Osmanlı-Azərbayacan münasibətlərinə diqqət yetirmişdir[6].

Xanlıqların tarixinin öyrənilməsi istiqamətində xeyli iş görülmüşdür. F.Əliyev və M.Əliyevin birgə hazırladıqları «Naxçıvan xanlığı» adlı monoqrafiya[7] tədqiq etdiyimiz dövrün siyasi hadisələrinə aid tutarlı materiallarla zəngindir.

S.Şükürovun "Gəncəli Cavad xanın hekayəti" əsərində Cavad xanın Rusiya ilə hərbi-siyasi münasibətlərinə geniş yer verilmişdir[8].

M.S.İskəndərova, M.İsmayılov və M.Bağırova, Y.F.Ağamalı, T.T.Mustafazadə, T.Köçərli, F.Abasov, N.Bayramova[1], M.Əmrahov, Ə.Çingizoğlu

---

[1] Əsədov F. Dar gündə yaxşı arxa. Bakı: Azərnəşr, 1988, 125 səh.
[2] Əsədov F. Talış xanlığı. Bakı: Çənlibel, 1998, 152 səh.
[3] Гаджиева С.М. Азербайджан во внешней политике правительства Екатерины II. Баку: Элм, 2004, 148 стр.
[4] Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin ikinci yarısı). Bakı: Nurlan, 2002, 132 səh.; yenə onun XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı: Nurlan, 2007, 248 səh.
[5] Sadıqov H.Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi (1787-1829). Bakı: Elm, 1991, 175 səh.
[6] Мустафазаде Т.Т. Азербайджан и русско-турецские отношения в первой трети XVIII в. Баку: Элм, 1993, 240 стр.
[7] Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı: Azərnəşr, 1996, 106 səh.
[8] Şükürov S. Gəncəli Cavad xanın hekayəti. Gəncə: Gəncə, 1992, 210 səh.

və H.Həsənovun "Qarabağ xanlığı" dərs vəsaitində[2] və başqalarının əsərlərində Rusiya və İran-Qacarlar dövlətinin Azərbaycana münasibətdə yeritdikləri siyasət haqqında qiymətli fikirlər vardır.

Azərbaycan MEA A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşları tərəfindən hazırlanmış «İrəvan xanlığı» adlı monoqrafiyada[3] İrəvan xanlarının yeritdiyi xarici siyasət, rus-gürcü bloku və Qacarlar səltənətinin İrəvan xanlığını ələ keçirmək siyasəti barədə məlumat verilmiş, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan İrəvan xanlığı haqqında erməni tarixçilərinin saxta fikirləri təkzib edilmişdir.

A.C.Seyidovanın namizədlik dissertasiyasında[4] XVIII yüzilliyin sonlarında Azərbaycan xanlıqlarının öz varlıqlarını qorumaq uğrunda apardıqları mübarizə tədqiq olunmuşdur.

Problemlə bağlı A.Abbasovun, M.Əliyevin, E.Paşayevanın, İ.Məmmədovanın, R.H.İbrahimovun, N.İbrahimovanın, L.Calalovanın, T.Həsənzadənin, M.Quliyevin, Y.Rəhimovun tədqiqatlarında maraq doğuran fakt və materiallar vardır[5].

---

[1] Искендерова М. Бакинское ханства. Баку: Чашыоглу, 1999, 210 стр.; İsmayılov M. və Bağırova M. Şəki xanlığı. Bakı: Azərnəşr, 1997, 76 səh.; S.Ağamalı Y.F. Qarabağ xanlığının digər xanlıqlar və qonşu dövlətlərlə münasibətləri. Nam.dis.avtoref., Bakı: 2003, 24 səh.; Mustafazadə T.T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, 372 səh.; Yenə onun, Quba xanlığı , Bakı: Elm, 2005, 457 səh.; Mustafazadə T.T. Qarabağ xanlığı, Bakı: Sabah, 2010, 333 səh.; Məmmədova İ. Lənkəran xanlığı Birinci Rusiya-İran müharibəsi dövründə. Bakı: Elm, 2007, 487 səh.; Köçərli T. Qarabağ . Bakı: Elm, 2002, 472 səh.; Абасов Ф. Гарабахское ханство. Баку: Тахсил., 2007, 278 стр.; Bayramova N. Şamaxı xanlığı. Bakı: Təhsil, 2009, 396 səh.

[2] Əmrahov M., Çingizoğlu Ə., Həsənov H. Qarabağ xanlığı. Bakı: Mütərcim, 2008, 220 səh.

[3] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (AMEA-nın müxbir üzvü, prof.Y.Mahmudovun redaktorluğu ilə). Bakı: Azərbaycan, 2009, 574 səh.

[4] Seyidova A.C. XVIII yüzilliyin sonlarında Azərbaycan xanlıqlarının siyasi müstəqilliklərini qorumaq uğrunda mübarizəsi. Nam.dis.avtoref., Bakı, 2008, 27 səh.

[5] Abbasov A.A. XVIII əsrdə Rusiyanın Cənubi Qafqaza qarşı işğalçılıq siyasətində dini etnik amillər. Nam. dis. avtoref., Bakı, 2009, 26 səh.; Əliyev M. Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı. Nam.dis.avtoref., Bakı, 1996, 26 səh.; Paşayeva E, 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi. Nam.dis.avtoref., Bakı, 2005, 26 səh.; Məmmədova İ.M. Lənkəran xanlığının qonşu xanlıqlar və dövlətlərlə münasibətləri. Nam.dis.avtoref., Bakı, 2005, 24 səh.; İbadov R.H. Azərbaycan XVIII əsrin son rübündə Rusiya, İran və Türkiyə münasibətlərində. Nam.dis.avtoref., Bakı, 2005, 26 səh.; İbrahimova N. XIX əsrin əvvəllərində Şimali Azərbaycanda Rusiya çarizminin idarəçilik sistemi (1840-cı ilədək). Nam.dis.avtoref., Bakı, 2008, 27 səh.; Calalova L. XVIII əsrin son rübündə Azərbaycan-Rusiya ticarət əlaqələri. Nam.dis.avtoref., Bakı, 2012, 26 səh.; Həsənzadə T. XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün ictimai-siyasi xadimləri. Nam.dis.avtoref., Bakı:,2012, 52 səh.; Quliyev M.R. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi

Y.M.Mahmudov və K.Şükürovun Azərbaycanın diplomatiya tarixinə həsr olunmuş 1639-1828-ci illəri əhatə edən qiymətli sənədlər məcmuəsi də göstərilən problemin açılışı üçün mənbəşünaslıq bazası kimi mühüm təməl təşkil edir [1].

Rusiya ilə Qacarlar İranı dövlətləri arasında "nifaq alması"na çevrilmiş Azərbaycan uğrunda diplomatik və hərbi mübarizə İran müəlliflərinin Azərbaycan tarixinə aid yazılmış bir sıra ümumiləşdirilmiş əsərlərində də toxunulmuşdur [2]. Fətəli şahın (1797-1834) saray tarixçilərindən Məhəmməd Rəzi Təbrizinin "Zinət üt-təvarix", Məhəmməd Sadiq Mərvəzinin "Cahanara", Əbdürrəzaq Dünbulinin "Məasiri Sultaniyyə" əsərləri dövrün hadisələrini araşdırmaq baxımından qiymətli fars dilli mənbələrdir[3].

M.R.Təbrizinin "Zinət üt-təvarix" əsərində Qacarlar İranı dövlətinin yaranmasından 1809-cu ilə qədər cərəyan edən hadisələrdən bəhs olunur. Əsərdə Rusiya-Qacarlar İranı münasibətlərində Azərbaycan məsələsi yığcam şəkildə şərh olunmuşdur[4].

Əbdürrəzaq Dünbuli "Məasiri-Sultaniyyə" ("Hökmdarın şanlı işləri") əsəri 1797-ci ildən başlayaraq 30 illik bir dövrü əhatə edir. Əsərdə daha çox Rusiya-İran müharibələri əks etdirilmişdir[5].

Məhəmməd Sadiq Mərvəzinin "Cahanara" salnaməsi 30 illik tarixi hadisələri əhatə edir. Rusiya-İran müharibələrinin müəyyən dövrlərini təsvir edən bu əsərdə təəssüf ki, Azərbaycanın ictimai-iqtisadi vəziyyətinə toxunulmur[6].

---

mövqeyi və əlaqələri. Nam.dis.avtoref., Naxçıvan, 2011, 26 səh.; Rəhimov Y.N. XIX əsr rus mənbələri Naxçıvan haqqında. Nam.dis.avtoref., Naxçıvan, 2012, 25 s.; Quliyev C.Ş. Qafqaz arxeoqrafiya komissiyasının sənədləri Şimali Azərbaycanın Rusiya tərəfindən işğalını öyrənmək üçün mənbə. Nam.dis.avtoref., Bakı, 2014, 22 s.

[1] Mahmudov Y.M., Şükürov K. Azərbaycanın beynəlxalq münasibətlər və diplomatiya tarixi. (1639-1828.) I c., Bakı, 2009, 512 səh.

[2] Azərbaycan tarixi 3 cilddə. I cild, Bakı: Azərb.SSR EA., 1961, 512 səh.; Azərbaycan tarixi 3 cilddə. II cild, Bakı. 1964; Azərbaycan tarixi I cild (ən qədim zamanlardan XX əsrədək Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə). I c., Bakı:Azərnəşr, 1994, 687 səh.

[3] Quliyev Ə., Həsənov İ., Striqunov İ. XIX əsrdə və XX əsrin başlanğıcında Azərbaycanda tarix elminin inkişafı. Bakı: Azərnəşr, 1960, 224 səh.; Hüseynzadə Ə. XIX əsrin II yarısında Azərbaycan tarixşünaslığı. Bakı: Azərb.SSR EA.,1967, 219 səh.

[4] Məhəmməd Rəzi Təbrizi. Zinətüt-təvarix (əlyazması).Ermənistan SSR (indiki Ermənistan Respublikası) Nazirlər Soveti yanında qədim erməni əlyazmaları fondu-Matendaran, ərəb əlifbası ilə yazılmış nüsxələr kataloqu, № 547

[5] Əbdürrəzaq Dünbuli. Məasiri Sultaniyyə. Təbriz, 1241, hicri (miladi 1825/26-cı il)

[6] Məhəmməd Sadiq Mərvəzi Cahanara (əlyazması), Azərbaycan Respublikası MEA-nın (Azərbaycan SSR EA-nın) Əlyazmaları İnstitutu (keçmişdə Respublika Əlyazmalar Fondu),

Nasir Nəcmi[1] və Bəhmən Mirzə Qacar[2] əsərlərində öyrənilən problemə aid zəngin məlumatlar veriblər. Lakin birinci müəllif hadisələrə Qacarların, ikincisi isə rus dövləti mövqeyindən yanaşmışdır.

P.Semnaninin "Fətəli şah Qacar" əsəri XVIII-XIX əsrin hüdudlarında Azərbaycan ətrafında baş verən beynəlxalq münasibətləri, siyasi gedişləri, Fətəli şah Qacarın dövlət xadimi kimi fəaliyyətini öyrənmək baxımından qiymətlidir[3].

Problemin ayrı-ayrı tərəflərinə türk tarixşünaslığında da toxunulmuşdur. A.N.Kurat, M.A.Çakmak, C.Gökça, S.İşıktan Rusiyanın və Qacarlar İranı dövlətinin Azərbaycanda yeritdiyi siyasəti işıqlandırmağa cəhd göstərmişlər. Süleyman Qarabaş, Mustafa Huri Paşa, Əhməd Cövdət Paşa da araşdırılan dövrdə Osmanlı dövlətinin mövqeyindən bəhs etmişlər[4]. Eyni zamanda gürcü tarixçisi Z.M.Şaraşanidze[5] və ABŞ-da yaşayan erməni əsilli C.Bournotyan Qacarların İrəvan xanlığı ilə münasibətlərinin bəzi məqamlarını tədqiq etmişlər[6]. Fransız tarixçisi J.Gebr isə Rusiya və Qacarlar dövlətinin Qafqaz siyasətinə toxunmuşdur[7].

Göründüyü kimi, Azərbaycan və onun hüdudlarından kənarda mövzu ilə bağlı xeyli əsər yazılsa da, bu əsərlərin heç biri XVIII əsrin son rübü-XIX əsrin əvvəlində Rusiya-İran (Qacarlar) münasibətlərində Azərbaycanın yeri məsələsini tam əhatə etməmişdir. Məhz bu amil mövzunun tədqiqat obyekti kimi seçilməsində əsas rol oynamışdır.

**Tədqiqatın mənbə bazası.** Problemin mənbə bazasını Rusiyanın müxtəlif arxivlərində saxlanılan sənədlər təşkil edir. Qeyd edək ki, Rusiya arxivlərində Azərbaycanla bağlı olan sənədlərin böyük bir hissəsi müxtəlif

---

RƏF, inv.N.D-281. (Az.SSR EA Respublika Əlyazmalar Fondu (İndiki Azərbaycan Respublikası Əlyazmalar İnstitutu), №263 və №-Б- 2239)

[1] Nasir Nəcmi. Abbas Mirzə. Bakı: Yazıçı, 1993, 128 səh.

[2] Bəhmən Mirzə Qacar. Şükürameyi-şahənşahi (əlyazma); Respublika Əlyazmalar Fondu, № 263 və № B-2239.

[3] Pənahi Semnani. Fətəli şah Qacar. Bakı: Şuşa, 2006, 255 səh.

[4] Kurat A.N.Türkiye ve Rusiya: XVIII yüz yıl sonundan kurtuluş savaşlarına kadar Türk-Rus ilişkileri. (1798-1919). Ankara: Basım evi, 1970,755 səh.; Çakmak M.A. Hanlıklar devrinde Azerbaycan-Türkiye münasibetleri (1723-1829) Doktora tezi. 1997, 250 səh.; C.Gökça Kafkasiya və Osmanlı imperatorluğunun Kafkasiya siyaseti. İstanbul, 1979; S.İşıktan 1787-1792. Osmanlı-Rus harbi sırasında ve sonlarında Osmanlı devletinin Dağıstan hanları ilə münasibətləri. İstanbul: Kafkaz araşdırmaları,1988,s.-25-33. S.Kocabaş. Türk-rus mücadilesi. İstanbul, 1989, s.M.H. Paşa. Türrk tarih kurumu, Ankara, 1987; A.C.Paşa. Tarihi-Cevdet. İstanbul, c. II,1970

[5] Шарашанидзе З. Иран во второй половине XVIII в. Тбилиси, 1971, 53 стр.

[6] Bournoution G/A/ The khanate of Erevan under Qajar rule 1795-1828/ Cocta Mesa, California and New York, 1992, 355 pg.

[7] Gebr J. Xacə şah (tarixi roman). II kitab, Bakı: Gənclik, 1994, 224 səh.

illərdə Azərbaycan MEA Tarix İnstitutunun əməkdaşları tərəfindən toplanılmışdır ki, bunlar da hazırda həmin institutun elmi arxivində saxlanılır.

Rusiya Dövlət Hərbi Tarix Arxivinin (РГВИА) 52 saylı fondunda saxlanılan sənədlər dissertasiyanın yazılmasında daha faydalı olmuşdur. Rusiyanın Qafqaz siyasətinin əsas müəlliflərindən olan Q.A.Potyomkinin, XVIII əsrin son rübündə Qafqaz xəttindəki rus ordusunun komandanı olmuş general de-Medemin, P.S.Potyomkinin, İ.V.Qudoviçin müxtəlif xarakterli yazışmalarından, Rusiya Dövlət Qədim Aktlar Arxivinin (РГАДА) 276 və 1406 nömrəli fondlarında, Rusiya İmperiyasının Xarici Siyasət Arxivinin (АВПРИ) 77 nömrəli fondunda saxlanılan sənədlərdən Rusiyanın Azərbaycana dair planlarının aydınlaşdırılması üçün istifadə olunmuşdur.

Dissertasiyanın yazılmasında müxtəlif sənədlər toplusundan, dövri mətbuatda nəşr olunmuş materiallardan istifadə edilmişdir. «Dövlət Şurasının arxivi»[1] adlı iki cildlik sənədlər toplusunda daha çox rəsmi dövlət sənədləri cəmlənmişdir. Onların arasında Azərbaycan xanlıqlarının Rusiyanın himayəsi altına qəbul edilməsi haqqında qərarlar, Qafqazdakı rus ordusunun komandanlarına verilən təlimatlar, Azərbaycanda və İranda fəaliyyət göstərən rus konsullarının hesabatları daha çox diqqəti cəlb edir.

Nəşr olunmuş mənbələr arasında «Qafqaz Arxeoqrafiya Komissiyasının aktları» (АКАК)[2] adlı sənədlər məcmuəsi xüsusi yer tutur. Məcmuədə çap olunmuş rəsmi sənədlər–müqavilələr, raportlar, arayışlar, məktublar, göstərişlər və s. dissertasiyanın üçüncü fəslinin yazılması zamanı tədqiqata cəlb olunmuşdur.

Dissertasiyada "XVIII-XIX əsrin əvvəlində Rusiya-Dağıstan münasibətləri" sənədlər məcmuəsi (1988) adlı topludan,[3] «Osmanlı dövləti ilə Azərbaycan türk xanlıqları arasındakı münasibətlərə dair arxiv bəlgələri» adlı iki cildlik məcmuənin birinci cildindən[4] ayrı-ayrı məsələlərin işıqlandırılmasında istifadə olunmuşdur.

İngiltərənin Ost-Hind kampaniyasının XIX əsrin ilk illərində İranda səfiri olmuş C.Malkolmun ilk mənbə xarakteri daşıyan əsərində[5] Ağa Mə-

---

[1] Архив Государственного Совета. Т.1, ч.1, СПб.1869, 973 стр.; Архив Государственного Совета, ч.2, СПб, 1888, 1036 стр.

[2] АКАК. т.1-12. Под. Ред. А.Берже. Тифлис. 1866-1904 г г.

[3] Русско-Дагестанские отношения в XVIII в начале XIX веке. Сборник документов.: Наука, 1988, 356 стр.

[4] Osmanlı devleti ile Azerbaycan türk hanlıkları arasındakı münasibetlere dair arşiv belgeleri (1578-1914). Osmanlı Arşiv Daire başkanlığı. Yayın Nu: 4, Ankara, 1992, 427 səh.

[5] Жизнеописание Ага Магамет Хана Каджара, основателя ныне царствующей в Персии династии с кратким обозрением последовавших после его смерти главнейших прошествий // Сын отечества и Северный архив-журнал словесности политики и истории. Т.XIX, СПб, 1835, с.290, 332-406

həmməd xan Qacarın hakimiyyət uğrunda apardığı mübarizənin detalları haqqında qiymətli məlumatlar vardır. Dissertasiyanın işlənilməsi prosesində həmin materiallar da təhlilə cəlb olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi XVIII əsrin son rübü-XIX əsrin əvvəlində Qacarlar İranı dövləti ilə Rusiya arasındakı münasibətlərdə Azərbaycanın tutduğu yeri müəyyənləşdirmək və son nəticədə Azərbaycanın parçalanmasına gətirib çıxaran hadisələrin obyektiv mənzərəsini yaratmaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün aşağıda göstərilən konkret vəzifələrin həll edilməsini lazım bildik:

–Azərbaycan xanlıqlarının daxili siyasi vəziyyətini təhlil edərək, beynəlxalq münasibətlərin Azərbaycan xanlıqlarının siyasi həyatına təsirini müəyyənləşdirmək;

–Kərim xan Zəndin Azərbaycan xanlıqlarına münasibətdə yeritdiyi siyasətin mahiyyətini açmaq;

–Rusiya imperiyasının Şərq siyasətində Azərbaycanın yerini müəyyənləşdirmək;

–Rus-erməni birliyinin Azərbaycan torpaqlarını parçalamaq, Azərbaycan ərazisində erməni "dövləti" yaratmaq planlarını ifşa etmək;

–Azərbaycan uğrunda Rusiya-Qacarlar İranı qarşıdurmasının obyektiv mənzərəsini yaratmaq;

–Azərbaycanda Rusiya işğallarının başlanması və Qacarlar İranı dövlətinin buna münasibətini işıqlandırmaq.

**Tədqiqatın metodoloji əsası.** Problemə tarixi-fəlsəfi yanaşma, konseptual baxış, problemin sistemli öyrənilməsi işin metodoloji əsasıdır.

Görkəmli siyasi xadimlər və tarixçi alimlərin mülahizə və ideyaları işin elmi-nəzəri bazasını təşkil edir. Tədqiqat zamanı klassik məntiqi metodlardan-analiz, sintez, ümumiləşdirmə, tarixi təsvir, tarixi müqayisə və sistemli yanaşma üsullardan geniş istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Çar Rusiyası və Qacarlar İranı münasibətlərində Azərbaycanın yeri məsələsi ilk dəfə olaraq göstərilən xronoloji çərçivədə müstəqil tədqiqat obyekti kimi seçilmişdir. Azərbaycan tarixşünaslığında Ağa Məhəmməd xan Qacarın cənub xanlıqlarını itaətə gətirmək uğrunda mübarizəsi mərhələlərə bölünmüş və hər mərhələnin özünəməxsus xüsusiyyətləri əsaslandırılmışdır. Müəyyənləşdirilmişdir ki, Qacarlar sülaləsinin Azərbaycan uğrunda mübarizənin ilk dövrlərində türkçülük ideyalarını ön plana çəkmiş və öz məqsədinə müəyyən qədər nail olmuşdur.

Tədqiqat işində XVIII əsrin 80-ci illərinin ikinci yarısında Cənubi Azərbaycanın bir sıra hakimlərinin Qacarlar sülaləsi hakimiyyəti təh-

lükəsinə qarşı mübarizənin bir yolu kimi Azərbaycan adlı dövlət yaratmağa üstünlük verdikləri faktlarla sübut olunmuşdur.

İlk dəfə Ağa Məhəmməd şah Qacarın siyasətindəki proqressiv cəhətlər sanballı mənbələr kontekstində dəqiqləşdirilmişdir.

Əsaslandırılmışdır ki, çar Rusiyası Azərbaycan torpaqları hesabına erməni "dövləti" yaratmağa can atmaqla işğalçılıq planlarını pərdələmək məqsədi güdmüşdür.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində faktiki materiallardan geniş istifadə edilmiş, ayrı-ayrı məsələlər haqqında bir sıra yeni fikirlər irəli sürülmüş, nəzəri əhəmiyyəti olan ümumiləşdirmələr edilmişdir. İrəli sürülən fikirlər və faktiki materiallardan Azərbaycanın xanlıqlar dövrü tarixinə dair tədqiqatlarda, ümumiləşdirici əsərlərin, ali məktəblər üçün dərslik, dərs vəsaitlərinin hazırlanmasında, mühazirə kurslarının tərtibində istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycanın tarixi kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas məzmununu əhatə edən ideya və mülahizələr, elmi müddəalar müəllifin tezis və məqalələrində, həmçinin elmi nəzəri konfranslardakı çıxışlarında əks olunmuşdur.

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan tarixi kafedrasında iki dəfə müzakirə olunmuş və müdafiəyə buraxılması məsləhət görülmüşdür.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə, və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"XVIII əsrin 70-80-ci illərində Rusiya-İran münasibətlərində Azərbaycanın yeri"** adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir. "Azərbaycanın daxili siyasi vəziyyəti və beynəlxalq münasibətlərdə yeri" adlı birinci yarımfəsildə göstərilir ki, XVIII əsrin 50-60-cı illərində İranda və Cənubi Azərbaycanda hakimiyyət uğrunda gedən mübarizə Azərbaycanın şimalında mövcud olan xanlıqların müstəqilliklərinin möhkəmlənməsi üçün əlverişli şərait yaradırdı. Lakin bəzi xanların vahid Azərbaycan dövləti yaratmaq siyasəti daxili və xarici amillər nəticəsində uğur qazana bilmədi. Xüsusən Qubalı Fətəli xanın öz məqsədinə çatmaq üçün Rusiya, Osmanlı, İran (Qacarlar), Kartli-Kaxet çarlıqları ilə saxladığı

diplomatik əlaqələr buna xidmət etsə də, faydasız oldu[1]. XVIII əsrin 90-cı illərində ərazi və hakimiyyət uğrunda mübarizə yalnız xanlıqlar arasında deyil, həm də ayrı-ayrı xanlıqların daxilində də geniş miqyas aldı. Şamaxı xanlığında Ağası və Məhəmmədsəid xanın oğulları[2], Şəki xanlığında Səlim xan və Məhəmmədhəsən xan qardaşları arasında mübarizədə Şamaxı və Qarabağ xanları da fəal iştirak edirdi.[3]

Bakı xanlığında hakimiyyət uğrunda mübarizə Qubalı Əhməd xanın (1789-1791) və Şeyxəli xanın (1791-1810) bu xanlığı itaətdə saxlamaq uğrunda apardığı mübarizə ilə çulğaşırdı. Xüsusən, II Mirzə Məhəmməd xanla (1784-1791) Hüseynqulu xan (1792-1806) arasındakı çəkişmələr xanlığın Rusiya tərəfindən işğalı dövrünədək davam etdi.[4]

Ümumiyyətlə, XVIII əsrin II yarısında Azərbaycanın həm Şimal, həm də müəyyən dərəcədə Cənub xanlıqlarında qeyr-sabitlik hökm sürürdü.

Yarımfəsildə əsaslandırılır ki, xanlıqlar dövründə Azərbaycanda hərbi-siyasi sabitliyin olmaması və vahid dövlətin yaranmaması onun beynəlxalq aləmdə vəziyyətini ağırlaşdırdı, müdafiə qabiliyyətini zəiflətdi, xarici güclərin ölkəmizin daxili işlərinə müdaxiləsinə əlverişli şərait yaratdı. Azərbaycanın zəngin təbii ehtiyatları və əlverişli coğrafi mövqeyi onu daha güclü qonşu dövlətlərin-İran (Qacarlar), Rusiya, Osmanlı və dünya supergüclər-İngiltərə və Fransa arasında "nifaq alması"na çevirdi. Lakin Azərbaycanın taleyi Rusiya-İran (Qacarlar) arasındakı hərbi-siyasi qarşıdurmada həll olunurdu.

Rusiyanın işğalçılıq planlarından xəbərdar olan qərb diplomatiyası ona mane olmaq üçün Rusiya-Osmanlı qarşıdurmasından yararlanmağa çalışırdı. İngiltərə Osmanlı dövlətinin antirus siyasətini dəstəkləyirdi.[5]

I fəslin "XVIII əsrin 70-ci illərində Rusiya-İran münasibətləri və Azərbaycan" adlı ikinci yarımfəslində göstərilir ki, Hindistanı Qərbi Avropa ölkələri ilə birləşdirən tranzit ticarət yolunu Volqa-Xəzər yoluna istiqamətləndirməklə Rusiyanın beynəlxalq ticarətdən götürəcəyi gəliri artırmaq istəyən[6] rus çarı I Pyotr (1682-1725) beynəlxalq ticarətdə Azərbaycana xü-

[1] Bax: Abdullayev H.B. Şimal Şərqi Azərbaycan tarixindən..., 211 səh. Mustafazadə T.T. Quba xanlığı. 457 səh.
[2] Mustafayev C.M.Göstərilən əsəri..., s. 34-35
[3] İsmayılova M., Bağırova M., Göstərilən əsəri..., s.43-45; Mustafayev C.M. Göstərilən əsəri..., s. 31-34.
[4] Ашурбейли С.Б.Очерки истории средневекого Баку. Баку: Азернешр, 1992, с.299-300
[5] Маркова О.П. Göstərilən əsəri..., s. 19
[6] Лебедев В. Западный берег Каспийского моря при Петра I. //Журнал Мин-во Народного Просвешения. 1848, №1, с.1-2

susi əhəmiyyət verirdi. Bu səbəbdən də 1722-1735-ci illərdə Rusiya Xəzərsahili vilayətləri zəbt etsə də, bu regionu əldə saxlaya bilmədi[1].

XVIII əsrin ortalarında çar Rusiyasının Cənubi Qafqaz siyasətində passivliyini 7 illik müharibədən (1756-1763) sonra fəallıq əvəz etdi. Çar Rusiyası regionda İranda nüfuzlu siyasi gücə çevrilmiş Kərim xan Zəndlə (1760-1779) qarşılaşdı. İranın böyük hissəsini və Cənubi Azərbaycanı nəzarət altına alan İsfahan xanı Kərim xan Zənd öz hakimiyyətini Azərbaycanın şimal xanlıqlarına da yaymaq istəyirdi. Lakin hərbi gücünün kifayət səviyyədə olmaması və digər səbəblərdən xanlıqları güc tətbiqi ilə deyil, diplomatik yolla tabe etmək istəyi uğursuz oldu[2].

XVIII əsrin 60-cı illərinin ikinci yarısında Kərim xan Zəndin Qafqaz siyasəti qeyri-fəal idi. Bu özünü 1768-1774-cü illər rus-türk müharibəsi zamanı aydın göstərdi. Yaranmış vəziyyətdən yararlanmaq istəyən türk sultanı Kərim xanı Rusiya və Gürcüstana qarşı müharibəyə cəlb etməyə çalışırdı.

1771-ci ildə Ərzurum paşasının elçiləri Kərim xan Zəndin sarayında oldu, onu Rusiyaya qarşı müharibəyə sövq etmək istəsələr də, buna nail ola bilmədilər[3].

1768-1774-cü illər müharibəsində çar Rusiyasının Osmanlı Türkiyəsi üzərində qələbəsi Azərbaycanda gedən siyasi proseslərə daha fəal müdaxiləsi üçün əlverişli şərait yaratdı. Azərbaycanı özünün itaətdən çıxmış torpağı hesab edən İran hər vasitə ilə bunun qarşısını almağa çalışırdı. çar Rusiyası öz məqsədinə çatmaq üçün iqtisadi və hərbi təzyiq metodlarından, "parçala və hökmranlıq et" taktikasından istifadə etdiyi halda, geridə qalmış Qacarlar İranı daha çox şantaj və təxribatlar yolu ilə Azərbaycanda öz hegemonluğunu bərqərar etməyə cəhd etdi.

"Rusiyanın Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq planı" adlı üçüncü yarımfəsildə XVIII əsrin sonlarından başlayaraq çar Rusiyasının Qafqaz siyasətindəki kəskin dəyişikliklər 1768-1774-cü illər müharibəsində Rusiyanın Osmanlı dövləti üzərində qələbəsi nəticəsində əldə etdiyi uğurlar fonunda təhlil olunur. Göstərilir ki, çar Rusiyası Qafqaza soxulmaq üçün erməni və gürcülərə istinad edirdi. Rus diplomatiyası bölgədə yeritdiyi siyasəti "xristian təəssübkeşliyi" və "xristian həmrəyliyi" kimi saxta ifadələrlə pərdələyirdi. Hələ 1722-ci ildə rus çarı I Pyotr (1682-1725) bədbəxt ermənilərə və gürcülərə zalım müsəlmanlara qarşı

---

[1] Зевакин Е. Прикаспийские провинции в эпохи русской оккупации. //Известия общества обслеедования и изучения Азербайджана. Баку, 1927, №5, с. 123-124
[2] Abdullayev H.B. Azərbaycan XVIII əsr..., s. 496
[3] АВПР, ф. 77, оп.6, д.119, л.1-9

mübarizədə yardım göstərmək bəhanəsi ilə Cənubi Qafqaza qoşun yeritmişdi[1]. Çar hökuməti Cənubi Qafqazın işğal edilməsinin beynəlxalq aləmdə mənfi reaksiya doğuracağından qorxaraq işğalın ilk mərhələsində burada Rusiyadan asılı xristian dövləti yaratmağı planlaşdırırdı. Bu erməni "dövləti" olmalı idi. Deməli, çar hökuməti Cənubi Qafqazın işğalını hərbi siyasi metodlarla yanaşı, xristian faktoru ilə pərdələyirdi. Çar Rusiyasının Qafqaz siyasəti ermənilərin Şimali Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq planları ilə üst-üstə düşürdü.

II Yekaterina (1762-1796) hökuməti də bütün Gürcüstanı II İraklinin hakimiyyəti altında birləşdirmək və Şimali Azərbaycan torpaqları hesabına erməni çarlığı yaratmaqla Cənubi Qafqaza sahib olmaq istəyirdi.

XVIII əsrin ortalarında Rusiyanın Qafqaz siyasətində müşahidə edilən passivliyin həmin əsrin 70-ci illərinin sonu-80-ci illərinin əvvəllərində aktiv fazaya keçməsi ticarət[2], siyasi[3] amillərlə, o cümlədən çariça II Yekaterinanın "yunan layihəsi"[4] və Krımın işğalı ilə sıx bağlı idi. Krımı ələ keçirməyə hazırlaşan Rusiya Osmanlı dövlətini iki cəbhədə-Balkanlarda və Cənubi Qafqazda vuruşmağa məcbur etməklə onun qüvvələrini parçalamaq istəyirdi[5].

Çar Rusiyasının Cənubi Qafqaza və Xəzər dənizi hövzəsinə dair planlarında bir-birilə bağlı iki istiqamət diqqəti cəlb edirdi. İlkin olaraq Xəzər dənizi hövzəsində rus ticarət kapitalının mövqelərini möhkəmləndirmək və Hindistanla birbaşa ticarət əlaqələri yaratmaq planlaşdırılırdı. İkinci istiqamət üç vəzifənin həyata keçirilməsini nəzərdə tuturdu:

1) Xəzər hövzəsində yerləşdirilən rus ordusu Osmanlı Türkiyəsi dövlətinin Asiya sərhədlərinə çıxmalı;

2) Dərbənddən Bakıya qədərki Şimali Azərbaycan torpaqlarını işğal etmək[6];

---

[1] Abbasov A.A. XVIII əsrdə Rusiyanın Cənubi Qafqaza qarşı işğalçılıq siyasətində dini etnik amillər. Nam.dis.avtoref. Bakı, 2009, s.12

[2] Вах: Сборник Русского Исторического Общества с 1867-1916 гг. В 148 томах, 27-ой том. СПб, 1880, с. 178-179

[3] Kurat A.N. Türkiye ve Rusiya: XVIII yüzyıl sonundan kurtuluş savaşlarına kadar Türk-Rus ilişkileri (1798-1919). Ankara A.İ.Basımevi, 1970, s. 21

[4] Русский архив. Москва, 1880, кн.1, с. 281-291; Маркова О.П. Göstərilən əsəri..., с.160

[5] Габлиц К. Исторический журнал, бывшей в 1781 и 1782 годах на Каспийском море Российской эскадры под командованием капитана второго ранга, графа Войневича.,: Москва, 1809, с.5

[6] Иоаннисян А.Р. Россия и армянское освободительное движение в 80-х годах XVIII столетия Ереван: АН Арм.ССР, 1947, с. 68

3) Xristian faktorundan istifadə edib, tarixi Şimali Azərbaycan torpaqlarında erməni maskası altında forpost "dövlət" yaratmaq;

Çar Rusiyasının Qafqaz siyasətinin əsas müəlliflərindən olan Q.A.Potyomkin və A.A.Bezborodko rus dövlətinin siyasətini aydın açıqlamışdı: "Biz ancaq Bakıya qədərki torpaqları tutacağıq, Qarabağ və Qarabağdan ibarət olan İran Ermənistanı və İraklinin çarlığı Türkiyə Ermənistanı ilə həmsərhəd olacaq"[1]. Q.A.Potyomkin başqa bir məktubunda yazırdı ki, Qarabağda yaradılacaq "müstəqil erməni vilayəti Rusiyadan başqa heç kəsdən asılı olmayacaq"[2].

Çar Rusiyasının hərbi-siyasi dairələrində Şimali Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq ideyasının formalaşmasında erməni "xadimləri" canfəşanlıq edirdi. XVIII əsrin II yarısında erməni ideoloqlarının erməni çarlığı yaratmaq ideyasında iki mərhələ müəyyənləşmişdi. Birinci mərhələ əsrin 50-60-cı illərini əhatə edir. Bu mərhələdə erməni ideoloqu İosif Emin ermənilərin hələ müstəqil dövlət yaratmağa və onu idarə etməyə qadir olmadıqlarını başa düşdüyündən, Cənubi Qafqazda vahid erməni-gürcü dövləti yaratmaq planını irəli sürür[3].

Ermənilərin Cənubi Qafqaz və Osmanlı Türkiyəsi torpaqlarında erməni dövləti yaratmaq planının ikinci mərhələsi 1768-1774-cü illər Rusiya-Osmanlı Türkiyəsi müharibəsinin başa çatmasından sonra başladı. Bu dəfə siyasi səhnəyə İ.Safarov, İ.Lazarev, İ.Arqutinski kimi erməni xadimləri çıxdılar. Onlar İ.Eminin "vahid gürcü-erməni dövləti" yaratmaq planından imtina edərək Rusiyanın himayəsində ayrıca erməni dövləti yaratmaq istədilər. Bu məqsədlə Q.A.Potyomkin, A.A.Bezborodko və A.V.Suvorov kimi yüksək rütbəli dövlət məmurları və hərbçilərlə sıx əlaqə yaradıldı[4].

1779-cu ildə Kərim xan Zəndin ölümündən sonra İran taxtına sahib olmağa çalışan Əlimurad xan ona kömək əvəzində çar Rusiyasına torpaq güzəştinə razı idi. Çar Rusiyası Əlimurad xanın güzəştə gedəcəyi Azərbaycan torpağında iki xristian-erməni "dövləti" yaratmalı idi: "Ermənistan" və "Albaniya"[5].

Dissertasiyanın II fəsli **"XVIII əsrin 80-90-ci illərində Azərbaycan uğrunda Rusiya-Qacarlar qarşıdurmasının güclənməsi"** adlanır. Bu fəslin birinci yarımfəslində "Rusiya və Qacarlar münasibətlərinin kəskinləşməsində Azərbaycan amili" məsələsinə aydınlıq gətirilir. Göstərilir ki, 1785-ci il fev-

---

[1] Yenə orada, s. 68
[2] РГВИА, ф. 52, оп. 2/203, д. 90, в.80
[3] Иоаннисян А.Р.Иосиф Эмин. Ереван: АН Арм.ССР, 1989, с. 41
[4] Габлиц К. Göstərilən əsəri..., с. 113-114; Иоаннисян А.Р.. Göstərilən əsəri..., с. 19-20.
[5] Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində..., göstərilən əsəri..., s. 176

ralın 7-də Əlimurad xanın ölümündən sonra İranın siyasi səhnəsində getdikcə möhkəmlənməkdə olan, tərəfdarlarının sayını sürətlə artıran Ağa Məhəmməd xan Qacar öz hakimiyyətini ən azı keçmiş Səfəvilər dövlətinin sərhədləri daxilində yaymaq niyyətində idi. Şah taxtına yiyələnmək naminə daha çox öz gücünə arxalanan Qacarlar hakimi Əlimurad xandan fərqli olaraq, hər hansı bir dövlətə, o cümlədən çar Rusiyasına heç bir ərazi güzəşt etmək niyyətində deyildi.

Ağa Məhəmməd xan Qacara münasibətdə çar Rusiyası iki əsas məqsəd güdürdü: İranda rus ticarətinin inkişafı üçün əlverişli şərait yaratmaq; Azərbaycan torpaqlarının ələ keçirilməsi üçün Ağa Məhəmməd xan Qacarın razılığını almaq.

Çar Rusiyasının hakim dairələri ilə yaxınlaşmaq üçün Ağa Məhəmməd xan Qacar bütün vasitələrdən istifadə edirdi. O hətta çar Rusiyasının Cənubi Qafqazdakı müttəfiqi II İraklidən Rusiya ilə İran arasında dostluq münasibətlərinin yaranmasında vasitəçi olmağı xahiş etmişdi. Ağa Məhəmməd xan Qacar bu işdə göstərəcəyi xidmət müqabilində II İrakliyə Şimali Azərbaycan torpaqları hesabına ərazi güzəştləri edəcəyinə söz vermişdi[1]. Ağa Məhəmməd xan Qacar Rusiya ilə normal diplomatik münasibətlərin yaradılması və qarşılıqlı faydalı ticarətin inkişafında maraqlı idi. O, Q.A.Potyomkinə məktubunda yazırdı ki, İranda məndən asılı olan xalqların Rusiya əleyhinə heç bir niyyəti yoxdur[2].

1787-ci ilin əvvəllərində knyaz Potyomkin Ağa Məhəmməd xanı hakimiyyətə gəlməsi münasibət ilə təbrik etdi[3]. Ağa Məhəmməd xan Qacar buna cavab olaraq öz elçisini dostluq əlaqəsi yaratmaq üçün Rusiyaya göndərdi. Lakin Ağa Məhəmməd xan Qacarın Rusiyaya hər hansı ərazini güzəşt etmək fikrindən uzaq olması və onun həddindən artıq güclənərək bu dövlətin işğalçılıq planlarına əngəl törədəcəyi ehtimalı Rusiyanın hakim dairələrində ona qarşı soyuqluq və inamsızlığı aradan qaldırmadı. Xüsusilə Ağa Məhəmməd xanın güclü dövlət yaratması Rusiyanın Cənubi Qafqazı itirməsi və onun Hindistana dair işğalçı tədbirlərinin pozulmasına şərait yarada bilməsi ehtimalına əsaslanan Rusiya hökuməti İran siyasətində Ağa Məhəmməd xana deyil, onun əsas rəqiblərindən olan Murtuzaqulu xana üstünlük verməyə başladı[4]. Lakin ona bəslənilən ümidlər də özünü doğrultmadı.

İkinci fəslin ikinci yarımfəsli "XVIII əsrin 90-cı illərində Rusiya və Qacarlar dövlətləri arasında qarşıdurmanın daha da güclənməsi" adlanır.

---

[1] РГВИА, ф. 52, оп.1/194, д. 416, ч.I, л,175, a.ü.
[2] РГВИА, ф. 52, оп.2/203, д. 32, в.22
[3] Маркова О.П. Göstərilən əsəri..., с. 217
[4] РГВИА, ф. 25, оп.1/194, д. 416, II h. v.476, a.ü.

Burada qeyd edilir ki, XVIII əsrin 90-cı illərində II Yekaterinanın sarayında ingilispərəst siyasi qüvvələr, o cümlədən Voronsovlar ailəsi öz ticarət mənafeləri ucbatından Rusiyanın Şərq siyasətini nüfuzdan salır, Qərb dövlətləri ilə siyasi və iqtisadi əlaqələrini gücləndirməyə çalışırdılar. Lakin çar Rusiyası əsas diqqətini Qərbi Avropa hadisələrinə yönəltsə də, Qacarların Cənubi Qafqazı, o cümlədən Azərbaycanı geri qaytarmasına göz yuma bilməzdi. Çar Rusiyası Cənubi Qafqazın işğalı üçün hərbi qüvvəsinin kifayət etmədiyini və bunun üçün siyasi şəraitin olmadığını nəzərə alaraq çoxvariantlı gedişlər edir, Cənubi Qafqazda qeyri-müəyyənlik və pərakəndəliyin saxlanılmasına çalışırdı. Bu səbəbdən də çar Rusiyası hökuməti yazışmalarda özünü Azərbaycan xanlarının dostu və müstəqilliyinin təminatçısı kimi təqdim etməyə çalışırdı[1].

XVIII əsrin 90-cı illərində Rusiya imperiyasının Azərbaycana yönəlmiş siyasətində əsas yeri xanları Qacarlar hakimiyyətinin təhlükəsi ilə qorxudub Rusiyanın himayəsinə almaq[2] və çar Rusiyasının siyasətinə tabe olmayan xanları cəzalandırmaq tuturdu. Qafqaz xəttində Rusiya imperiyası qoşunlarının komandanı vəzifəsində P.Tekellini əvəz etmiş general İ. Qudoviçə göndərilmiş hökumət təlimatında bu özünü aydın şəkildə göstərirdi[3].

Lakin bu məsələdə hökumətin dəqiq siyasi xəttinin olmaması yerlərdə fəaliyyət göstərən rus hərbçiləri və diplomatları üçün çətinlik törədirdi. Bu baxımdan kapitan P.Şişkinin İ.Qudoviçə ünvanlanmış 27 avqust 1791-ci il tarixli raportu maraqlıdır. O, Qudoviçdən Ağa Məhəmməd xanın güclənməsinə yol verməmək, onun tədbirlərinə mane olmaq, qüvvələrini necə və nə ilə məhdudlaşdırmaq haqqında təlimat verilməsini xahiş edirdi[4]. Dövlət Şurası da İ.Qudoviçə bəzi ehtiyat tədbirləri görməyi məsləhət görürdü. O, Ağa Məhəmməd xanın hücumunun baş verəcəyi təqdirdə Azərbaycan xanlarının ona qarşı birgə çıxış etmələrinə çalışmalı idi[5].

Ağa Məhəmməd xan Qacar isə Cənubi Qafqazı ələ keçirməyi yaxın gələcəyin işi hesab edirdi. Bu səbəbdən o, regiona müdaxilə edərkən həm çar Rusiyası, həm də Osmanlı Türkiyəsi amilini nəzərə alır, onların Cənubi Qafqaz məsələsində tutduğu mövqeyi yumşaltmağa, yarana biləcək hərbi münaqişənin qarşısını almağa çalışırdı.

---

[1] РГВИА, ф. 52, оп.1/194, д. 286, .I h, v,42-43
[2] Гаджыева С.М. Göstərilən əsəri..., с.93
[3] РГАДА, ф.1261, оп.1,д.1447, v.2, a.ü.
[4] РГВИА, ф. 52, оп. 2/203, д. 93.
[5] Цгарели А. Грамоты и другие исторические документы XVIII в. относящиеся к Грузии, т. II, вып.II, Тифлис, 1902, с. 85-89

1793-cü ildə Ağa Məhəmməd xan Qacar Azərbaycanın Şimal xanlıqlarını ələ keçirmək üçün ilk ciddi cəhd göstərdi. İrəvan, Naxçıvan, Qarabağ və Quba xanlıqlarına müraciət edərək onları Qacarlar İranı dövlətinə tabe olmağa çağırdı[1], lakin qaneedici cavab almadı.

1794-cü ildə Qacarlar İranı ordusu Azərbaycanın Şimal xanlıqlarını tabe etmək üçün daha bir cəhd göstərdi. Lakin Qarabağ xanı və Kartli-Kaxet çarının birləşmiş qüvvələri bu ordunu məğlub edib geri oturtdu[2].

Cənubi Qafqaz uğrunda mübarizənin kulminasiyası bu regiona Ağa Məhəmməd xan Qacarın (1795 və 1797) və rus (1796) ordusunun müdaxiləsi oldu.

**"XVIII əsrin sonu-XIX əsrin əvvəlində Azərbaycan Rusiya və Qacarlar münasibətlərinin düyün nöqtəsində"** adlı üçüncü fəslin birinci yarımfəsli "XVIII əsrin sonu-XIX əsrin əvvəllində Rusiya və Qacarlar dövlətlərinin Qafqaz siyasətində Azərbaycanın yeri" adlanır. Burada göstərilir ki, XVIII əsrin sonu-XIX əsrin əvvəlində Azərbaycanda olduqca mürəkkəb sosial-iqtisadi və siyasi şərait qalmaqda davam edirdi. Ayrı-ayrı feodal hakimlərin ölkəni vahid dövlətdə birləşdirmək cəhdləri uğursuzluqla nəticələndi. V.Zubovun və Ağa Məhəmməd xan Qacarın yürüşlərindən keçən qısa müddət ərzində Qacarlar İranı dövlətinin, eyni zamanda çar Rusiyasının Qafqaz siyasətində müvəqqəti və nisbi sakitlik hökm sürməyə başladı. Bu, bir tərəfdən, hər iki dövlətdə baş vermiş hakimiyyət dəyişikliyi, digər tərəfdən, Rusiyanın Qərb siyasətinin fəallaşması ilə bağlı idi.

1797-ci ilin iyununda Ağa Məhəmməd xan Qacarın Şuşada qətlə yetirilməsi Qacarlar İranı dövlətində siyasi vəziyyəti gənginləşdirdi. 1798-ci ilin martın 22-də özünü şah elan edən Fətəli şah (1798-1834) istər daxili, istərsə də xarici siyasətdə Ağa Məhəmməd xan Qacarın siyasətini davam etdirirdi. Əvvəllər olduğu kimi, Fətəli şahın dövründə də yüksək dövlət vəzifələrinə əsasən Azərbaycan-türk tayfalarının, ilk növbədə, qacarların nümayəndələri təyin edildilər[3]. Şahın vəliəhdi şahzadə Abbas Mirzənin ordunun yenidən qurulması üçün müəyyən addımlar atmasına baxmayaraq, orduda hökm sürən özbaşınalıq, texniki təchizatın aşağı səviyyədə olması onun döyüş qabiliyyətini xeyli azaltdı. Elə buna görə də Fətəli şah Azərbaycanın Şimal xanlıqlarını itaət altına almaq üçün hərbi təzyiq metodları ilə yanaşı,

---

[1] Дубровин Н.Ф. Поход графа Зубова в Персию в 1796 г. с приложением оперативной карты похода и план осады Дербента. //Военный сборник. 1874, №2-6, с.190

[2]Мустафаев Дж.М. Göstərilən əsəri..., c.83

[3] Кузнецова Н.А.Политическое и социально-экономическое положение Ирана в конце XVIII-первой половине XIX в.Очерки новой истории Ирана (XIX-начало XX в.).: Наука, 1978, с.24-25

dinc vasitələrdən, xüsusən də "nikah diplomatiyası"ndan da istifadə etməyə çalışdı. Əsas diqqət Fətəli şahın hakimiyyətini qəbul etməkdən imtina edən İrəvan, Qarabağ və Lənkəran xanlıqlarının ələ keçirilməsinə yönəldildi.O, Lənkəranlı Mir Mustafa xanın qızını öz oğluna istədi[1]. Mir Mustafa xan Rusiyanın köməyinə arxalanıb bu təklifi rədd etdi.

Cənubi Qafqazı, o cümlədən Şimali Azərbaycan xanlıqlarını öz hakimiyyəti altına almağa çalışan Fətəli şah bölgədə güclü mövqelərə malik Rusiya faktorunu daim diqqətdə saxlayır və başa düşürdü ki, Rusiyanın bitərəfliyini təmin etmədən Cənubi Qafqazın itaətə gətirilməsi asan olmayacaq. 1798-ci ildə Seyid Həsənin başçılığı altında Peterburqa göndərilmiş nümayəndə heyətinin qarşısında məhz bu vəzifənin yerinə yetirilməsi qoyulmuşdu. İran hökuməti ticarət əlaqələrində bəzi güzəştlər hesabına Rusiya hökumətinə Cənubi Qafqazda gedən proseslərə müdaxilə etməkdən imtina etməyi təklif edirdi[2]. Lakin hər şey Fətəli şahın gözlədiyinin əksi oldu. Rusiya hökuməti bildirdi ki, bundan sonra İran hökuməti Kartli çarına, onun mülklərinə, həmçinin Şamxala (Tarku hakiminə-H.H.) Dərbənd və Bakı xanlarına, eləcə də Xəzər dənizi ilə Gürcü vilayəti arasında yerləşən bütün torpaqlara hər cür iddiadan tamamilə imtina etməlidir[3].

Yarımfəsildə əsaslandırılır ki, XVIII əsrin sonu-XIX əsrin başlanğıcında baş verən bəzi dramatik siyasi hadisələr çar Rusiyasının Qafqaz siyasətini aktivləşdirdi. 1798-ci ilin yanvarında Kartli-Kaxet çarı II İraklinin ölümü Gürcüstanın Qacarlar sülaləsi hakimiyyəti altına keçməsi təhlükəsini yaratdı[4]. 1801-ci ildə İngiltərə və Qacarlar arasında imzalanmış ticarət müqaviləsi ingilis tacirlərinə Qacarlar İranı dövlətinin bütün ərazisində ticarət etmək hüququ verdi. Bu müqavilə Qacarların təsir dairəsində olmayan Şimali Azərbaycan və Gürcüstana da şamil edildi[5]. Hadisələri diqqətlə izləyən Rusiya diplomatiyası əsas diqqəti Şimali Azərbaycanda Qacarlar sülaləsi hakimiyyətinin bərpa edilməsinə yol verməməyə, Gürcüstanın təhlükəsizliyinin təmin edilməsinə və Xəzərsahili vilayətlərdə rus tacirlərinin mənafelərinin qorunmasına yönəltdi.

Üçüncü fəslin ikinci yarımfəsli "Azərbaycan Rusiyanın hərbi təcavüzü ərəfəsində" adlanır. Burada göstərilir ki, XIX əsrin əvvəlində dünyada sürətlə dəyişən beynəlxalq münasibətlər, 1801-ci il martın 12-də Rusiyada sui-qəsd nəticəsində öldürülmüş I Paveli çar I Aleksandrın (1801-1825)

---

[1] Берже А. Фатали шах и его дети. //Русская старина. 1866, т. 50, с.65

[2] РГАДА, ф.276, оп. 1, д.654, v.9, a.ü.

[3] Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. СПб, 1869, т.II, с.435

[4] Həmidova Ş.P. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı: Elm, 1985, s.37

[5] Игамбердиев М. Иран в международных отношениях первой трети XIX в. Самарканд: Самарканд. Унив.-та, 1951, с.43

əvəz etməsi, hakimiyyətin yuxarı təbəqəsində baş vermiş dəyişikliklər Rusiyanın xarici siyasətinə təsir göstərdi. I Pavelin dövründə pozulmuş Rusiya-İngiltərə münasibətləri yenidən bərpa edildi, Napaleon Fransasına qarşı qüvvələr birləşdirildi. Yaranmış vəziyyətdən Fransa dərhal istifadə etdi və Rusiyaya qarşı birgə mübarizə aparmaq üçün Fətəli şaha ittifaq bağlamağı təklif etdi[1]. İngiltərə və Fransanın diplomatik çarpışması prosesinin getdiyi zaman çar Rusiyası özünün Qafqaz siyasətini yenidən nəzərdən keçirərək XVIII əsrin sonunda çar hökuməti imperiyanın sərhədləri yaxınlığında, o cümlədən Cənubi Qafqazda vassal dövlətlər yaratmaq istəyirdisə, XIX əsrin başlanğıcında birbaşa bu ərazilərin işğalına keçdi[2].

Kartli-Kaxet çarı XII Georginin 1800-cü il dekabrın 28-də vəfatı və çarlıqdakı daxili çəkişmələr çar Rusiyasının Cənubi Qafqaza müdaxiləsini fəallaşdırdı. 1801-ci il yanvarın 20-də Kartli-Kaxet çarlığı haqqında xüsusi fərmana əsasən şahzadə David çar taxtının vəliəhdi titulundan məhrum edildi, çarlığın idarəçiliyi general-leytenant Knorrinqə həvalə olundu. Bu Şərqi Gürcüstanın çar Rusiyası tərəfindən işğalı istiqamətində atılmış ciddi bir addım idi.

Əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Qazax, Şəmşəddil, Borçalı və Pəmbək sultanlıqlarının Rusiya imperiyası tərkibinə qatıldığının nəzərdə tutulmasından sonra [3] Şərqi Gürcüstanın Rusiya imperiyası tərəfindən işğalı prosesi I Aleksandr tərəfindən başa çatdırıldı.

Rusiya işğalçı ordusuna qarşı yetərli miqdarda qüvvə çıxara bilməyən Qacarlar öz məqsədlərinə çatmaq üçün diplomatik vasitələrdən istifadə etməklə yanaşı, bölgədəki tərəfdarlarına şişirdilmiş yalançı vədlər verirdi. Ruslar isə yeni işğallara hazırlaşırdı.

Car-Balakən camaatlığı Rusiya imperiyasının Gürcüstandakı mövqeləri üçün daha böyük təhlükə hesab edilirdi. Rusiya imperiyası düşməni gürcü şahzadəsi Aleksandr burada fəallıq göstərir, 1801-1802-ci illərdə camaatlığın ərazisindən yaşayış məntəqələri ilə yanaşı, Gürcüstandakı rus hərbi postlarına da aramsız hücumlar təşkil olunurdu. Car-Balakən antirus qüvvələrin toplaşdığı əsas ocaqlardan idi. Çar Rusiyası höküməti belə hesab edirdi ki, Car-Balakənin işğalı digər xanlıqların ilhaqını asandlaşdırardı[4].

---

[1] Azərbaycan tarixi IV c.Bakı:Azərnəşr, 1994, s.15
[2] Ибрагимбейли Хаджи Мурат. Россия и Азербайджан в первой трети XIX века.: Наука, 1969, с.48
[3] Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı: Elm, 2004, s.28
[4] Бутков П.Г. Göstərilən əsəri..., c.527

Yarımfəsildə ümumiləşdirmə aparılaraq göstərilir ki, I Aleksandrın Azərbaycan xanlıqlarına münasibətdə yeritdiyi siyasətin birinci mərhələsində Azərbaycan xanlıqlarını Rusiya imperiyasının nüfuz dairəsində saxlamaq və onların Qacarlar dövləti ilə birləşmələrinə yol verməmək, ikinci mərhələdə isə Azərbaycan və Dağıstan xanlıqlarının Rusiyanın himayəsi altında ittifaqını yaratmaq və bu yolla Qacarlar dövlətinin bölgəyə gözlənilən hücumunun qarşısını almaq siyasəti yeridilirdi. Azərbaycan və Dağıstan hakimlərinin ittifaqının yaradılması haqqında danışıqlar 1802-ci il dekabrın 26-da Georgiyevsk şəhərində 12 maddəlik müqavilənin imzalanması ilə nəticələndi. Müqaviləni Azərbaycan xanlarından Quba və Lənkəran xanları imzaladılar[1].

Birinci iki mərhələdə I Aleksandr özünü Şimali Azərbaycan xanlıqlarının müstəqilliklərinin qarantı kimi göstərməyə cəhd etdi, üçüncü mərhələdə isə Şimali Azərbaycan torpaqlarının işğalına başladı. Rusiya 1803-cü ilin martında Car-Balakən camaatlığını[2] , 1804-cü il yanvarın 3-də isə Gəncə xanlığını işğal etdi[3]. Bundan sonrakı tarixi proseslər tədqiqatın xronoloji çərçivəsinə daxil olmadığı üçün işıqlandırılmamışdır.

Dissertasiyanın **nəticə** hissəsində fəsillərdə irəli sürülmüş fikir və mülahizələr ümumiləşdirilmiş şəkildə təqdim edilir.

---

[1] Azərbaycan tarixi. 7 cilddə, IV cild, Bakı:Elm, 2007, s. 15, 17

[2] Arzu Əşrəfqızı. Car-Balakən camaatlığı. Bakı:Uniprint, 2009, s. 26

[3] Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər (red.,prof. S.Əliyarlı). II ci nəşri, Bakı: Çıraq, 2009, s.585

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı əsərlərində öz əksini tapmışdır**:

1.XIX əsrin 20-ci illərində Rusiyanın Azərbaycanda xarici siyasəti. Az.Res.Pedaqoji ali məktəb aspirantlarının elmi konfransının tezisləri, 17-18 iyun. Bakı: ADPU, 1994, s. 92-93.

2.1787-1791-ci illər rus-türk müharibəsi ərəfəsində Cənubi Qafqaz. //Pedaqoji Universitetin Xəbərləri. (Humanitar Elmlər seriyası) Bakı: ADPU, 1995, № 1, s. 49-51.

3.Xanlıqlar dövründə Rusiyada ilk Azərbaycan səfirliyi 1775-ci il. //Pedaqoji Universitetin Xəbərləri, (Humanitar Pedaqoji-psixoloji elmlər seriyası). Bakı: ADPU, 1999, № 3, səh. 49-50.

4.I Rus-İran müharibəsində Cənubi Qafqaz məsələsi. Aspirantların və gənc tədqiqatçıların X Respublika Elmi konfransının materialları. Bakı: ADPU, 2005, s.88.

5.Qarabağ xanlığı. Dərs vəsaiti. Bakı: Mütərcim, 2008, 220 s.

6.Укрепление противостояния России-Ирана-Каджарского государства в борьбе за Азербайджан в 80-90-е гг. XVIII века. Сборник материалов I Международной научно-практической конфренции. Новосибирск: Центр развития научного сотрудничества, 2011, Часть I, s.31-39.

7.XVIII əsrin 70-80-ci illərində Rusiya-İran münasibətlərində Azərbaycanın yeri. //Xəbərlər. Bakı: AMEA-nın Tarix İnstitutu, 2011, 38 cild, s.69-73.

8.XVIII əsrin 70-ci illərində Rusiya-İran münasibətləri və Azərbaycan. //Doktorantların və gənc tədqiqatşıların XVI Respublika Elmi konfransının materialları. Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2012, s.180-183.

9.XVIII əsrin sonlarında Rusiya və İranın Şimali Azərbaycan uğrunda mübarizəsi. Respublika Elmi konfransının materialları, Sumqayıt, 24-25 may 2012, s.59-66.

10. План царской России о создании христианского государства в Азербайджане. //"Исторична память" Полтавский Национальный Педагогический Университет, 2012, выпуск, № 28. с.132-139.

11. Azərbaycanda Rusiya işğallarının başlanması. //Pedaqoji Universitet Xəbərləri. Bakı: ADPU, 2012, № 4, s.64-67.

12. XVIII əsrin II yarısında Azərbaycanın şimal xanlıqlarında siyasi vəziyyət. //Pedaqoji Universitet Xəbərləri, Bakı: ADPU, 2013, № 3, s.82-85.

13. XVIII əsrin sonlarında Azərbaycanın şimal xanlıqları Rusiyanın strateji maraqlarında. //Tarix və onun problemləri. Bakı, 2013, № 1, s.15-20.

14. Политика царской России на Южном Кавказе в последней четверти XVIII столетия. //Tarix və onun problemləri. Bakı, 2013, № 3, s.25-33.

**Г.И.Гасанов**

# АЗЕРБАЙДЖАН В РОССИЙСКО-ИРАНСКИХ ОТНОШЕНИЯХ В ПОСЛЕДНЕЙ ЧЕТВЕРТИ XVIII И НАЧАЛЕ XIX ВВ.

## РЕЗЮМЕ

После распада империи Афшаров в Иране в Азербайджане и в других странах, входящих в состав этой империи, возникла феодальная раздробленность как следствие образования мелких местных феодальных государств–ханств. Такая ситуация замедляла социально-экономическое и культурное развитие этих стран и создавала сложности для их обороны.

В данной ситуации такие государства, как Англия, Франция и Россия, которые стремились захватить военно-стратегические пункты, сырьевые источники, торговые рынки, обратили своё внимание на Южный Кавказ, в частности на Азербайджан. Политика России по отношению к Азербайджану носила особенно целенаправленный, интенсивный и агрессивный характер. Для достижения своей цели Россия прибегала к помощи армянского и грузинского народов. Изначально русско-армянский блок намеревался образовать на азербайджанской земле несколько христианских, в том числе армянских государств под опекой России. Затем Российское государство отказалось от этих планов и применило политику военного присоединения Азербайджана к России. Единственным препятствием на этом пути для России было государство Каджаров.

В диссертации излагается объективное исследование Российско-Каджарского противостояния за Азербайджан, освещается начало российской оккупации Азербайджана и рассматривается позиция государства Каджаров к данной ситуации.

В рассматриваемой работе раскрываются позиции Англии, Франции и Османской Турции относительно Азербайджана, проводимая ими политика и причины, по которым они не смогли нейтрализовать интервенцию России в Азербайджан.

В диссертации подвергаются критике попытки некоторых правителей Ирана и Азербайджана захватить власть или ради сохранения собственной власти подарить России и Грузии земли Родины, превратить Азербайджан в предмет политической торговли.

**H.I.Hasanov**

## AZERBAIJAN IN THE RUSSIA-IRAN RELATIONS AT THE LAST QUARTER OF XVIII AND AT THE BEGINNING OF XIX CENTURIES

### SUMMARY

After the collapse of the Afshar Empire feudal sparseness appeared in Iran, Azerbaijan and in other countries which were part of this empire. It was the result of emergence of small local feudal states–khanates. This situation lingered social-economic and cultural development of these states and complicated their defence.

Under these circumstances such states as England, France, Russia which strived to seize military-strategic points, sources of raw materials, trade markets turned their attention to the South Caucasus, Azerbaijan.

The policy of Russia regarding Azerbaijan had especially purposeful, intensive and aggressive character. Russia used the help of the Armenian and Georgian peoples.

In order to achieve its gains the Russian-Armenian bloc intended to establish several Christian, as well as Armenian states under Russian guardianship on the territory of Azerbaijan.

Afterwards the Russian state renounced its plans and used the policy of military annexation of Azerbaijan to Russia. The only obstacle for Russia on this way was the Gadjars state in Iran.

The objective view of the Russian-Gadjars confrontation for Azerbaijan, the beginning of Russian capture of Azerbaijan and the attitude of the Gadjars state to this situation are also lightened in the dissertation.

The positions of England, France and Ottoman Turkey regarding Azerbaijan, their policy and the reasons of their incapability of neutralizing the intervention of Russia in Azerbaijan are explained in the work.

The attempts of some rulers of Iran and Azerbaijan to seize political power or to give the lands of Motherland to Russia and Georgia in order to preserve their own power, to turn Azerbaijan into the point of political trade are criticized in the dissertation.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им.А.А.БАКИХАНОВА**

**На правах рукописи**

**Габил Исмиали оглу Гасанов**

# АЗЕРБАЙДЖАН В РОССИЙСКО-ИРАНСКИХ ОТНОШЕНИЯХ В ПОСЛЕДНЕЙ ЧЕТВЕРТИ XVIII И НАЧАЛЕ XIX ВВ.

**Специальность: 5503.02 - Отечественная история**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ - 2016**